# Yolunuz uğurlu olsun, əziz məzunlar

*Rayonun ümumtəhsil məktəblərində 2016—2017-ci dərs ilinin başa çatması münasibətilə «Son zəng» tədbirləri keçirilib.*

## Tüntül

Tüntül kənd tam orta məktəbi rayonumuzun qabaqcıl təhsil ocaqlarından biridir. Məktəbin yetirmələri bu gün elm ocaqlarında, sənayedə, inşaatda, kənd təsərrüfatında, silahlı qüvvələrdə, idarəetmə orqanlarında və sair sahələrdə müvəffəqiyyətlə çalışırlar.

2016-2017-ci dərs ilinin başa çatması münasibətilə Tüntül kənd tam orta məktəbində keçirilən «son zəng» tədbiri də uzun müddət xatirələrdə yaşayacaq bir mərasimə çevrildi.

Məktəbin direktoru Telman Abdulxalıqov tədbirdə təhsil ocağının fəaliyyəti barədə iştirakçılara məlumat verib. Qeyd olunub ki, məktəbin11-ci sinfini bu dərs ilində 43 nəfər bitirir. Məzunlardan 17 nəfər ali məktəblərə qəbul imtahanlarının birinci mərhələsində yaxşı göstəricilərə nail olub. Məzun İmran Nəzirov qəbul imtahanlarında 667 bal, Elmar Kərimov 660 bal toplayıb. Bu dərs ilində məktəbin



birinci sinfini 32 nəfər başa vurub. Növbəti dərs ilində məktəbin birinci sinfinə qəbul olunmaq üçün müraciət edənlər 36 nəfərdir.

Rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev dərs ilinin uğurla başa çatması münasibətilə müəllimləri, şagirdləri, valideynləri təbrik etdi. Məzunlara gələcək həyatlarında uğurlar arzuladı.

Təbrik çıxışlarından sonra söz məzunlara, şagirdlərə verildi. Vətənə, məktəbə, müəllimə həsr edilmiş şeirləri gözəl musiqi parçaları, rəqslər əvəz edirdi.

Onbirinci sinfi başa vuran məzunlar estafeti müxtəlif xatirə hədiyyələri ilə birinci sinif şagirdlərinə verdilər. Birincilər də məzunlara gül-çiçək dəstələri bağışladılar.

Onbirincilər üçün məktəbdə son zəng çalındı.

Yollarınız uğurlu olsun gənc dostlar!

**«Qəbələ»**

## Bum

«Son zəng» tədbiri Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbində də yüksək səviyyədə keçirilmişdir. Birincilərin oxuduqları dövlət himninin dinlənilməsindən sonra toplantını məktəbin tərbiyə işləri üzrə direktor müavini Azadə Hacıyeva açmışdır. Söz aparıcıya—uşaq birliyinin rəhbəri Gülnar Quliyevaya verilmişdir.

Təhsil ocağının rəhbəri Məlahət Dadaşova, dərs hissə müdiri Ramil Məmmədov cari ildəki nöqsanlardan və uğurlardan danışmışlar. Sonra XI sinif şagirdləri «Məktəb illəri» mahnısını xorla ifa etmişlər. Birincilərdən Məhəmməd Quliyev, Royal Eyyubov, Cünəş Ağabəyli, Nazxanım Bayramova, Xədicə Əmrahova, Gülər Quliyeva, Fərid Məhəmmədov və Aynişan Hacıyeva onbirinciləri şeir və mahnılarla təbrik etmişlər.

Müəllimlərdən Tofiq Qaragözovun, Qəzənfər Quliyevin, Almaz Seyidovanın, Zəminə Əzəmmədovanın, Şəhla Abdullayevanın, valideynlərdən Zeynəb Qasımovanın, Xatirə Cəfərovanın, Dilşad Yaqubovanın, məzunlardan Kəmalə Alcanovanın, Günel Hacıyevanın, Əli Qarazadənin, Kərim Kərimovun çıxışları maraqla qarşılanmışdır.

Toplantıda təhsil şöbəsinin nümayəndəsi Nüsrət Nuriyev çıxış etmişdir.

Maraqlı keçən toplantı «son zəng»in sədaları altında hədiyyələrin qarşılıqlı təqdimatı ilə başa çatmışdır.

✍ **Emin BARATOĞLU,**
**«Qəbələ»nin müxbir postunun rəhbəri.**

## Qəbələ

On bir illik məktəb həyatı və bu gün sədası ömrümüz boyu qulaqlarımızda cingildəyəcək "son zəng" səsi...

Bu səs şagirdləri qayğısız məktəb illərindən həyatın daha böyük, daha məsuliyyətli mərhələsinə aparan ilk kövrək addımın səsidir.





Qəbələ şəhər 1 nömrəli tam orta məktəbdə təşkil olunan "son zəng" tədbirini məktəbin direktoru Məhəbbət Rüstəmova açaraq, onbirinciləri və onların valideynlərini təbrik edib, məktəbdə 2016-2017-ci dərs ilində qazanılan uğurlar barədə məlumat verib.

Tədbirdə iştirak edən rayon icra hakimiyyətinin nümayəndəsi Tahir Əlimirzəyev, gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək məzunlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra tədbirə qatılan müəllimlər, valideynlər və şagirdlər məzunlara ən xoş arzularını bildiriblər. Mərasimdə məktəblilər maraqlı səhnəciklər nümayiş etdirib, şeirlər söyləyib, rəqslər ifa edib.

Axırda 1-cilərə estafet rəmzi olan xatirə hədiyyələri təqdim olunub.

✍ **Qumru RƏŞİDOVA,**
**məktəbin müəllimi.**

* * *

«Son zəng» günü Qəbələ şəhər 2 nömrəli tam orta məktəbdə təntənə ilə qeyd olundu. Tədbiri giriş sözü ilə məktəbin direktoru Təranə Səlimova açdı. 2014-2015-ci tədris ilində «İlin ən yaxşı ümumtəhsil müəssisəsi» adını almış, biologiya və tarix fənləri üzrə respublika birincisini, son iki ildə 3 qızıl medalçını yetişdirmiş doğma məktəbin uğurlarından məktəb direktoru fərəhlə danışdı. O bildirdi ki, respublika və beynəlxalq səviyyəli layihələrdə məktəblilər uğurla iştirak ediblər.

(Ardı 5-ci səhifədə).

## Həmzəli

Həmzəli kənd tam orta məktəbində keçirilən "Son zəng" tədbirində əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Tədbiri açan məktəbin direktoru Soltan Əmirfətov 2016-2017-ci tədris ilində təhsil ocağının uğurları barədə məlumat verərək, əldə edilən nailiyyətlərdə bu il məktəbi bitirən məzunların da payı olduğunu xüsusi vurğulayıb, onlara yeni başlayacaqları müstəqil həyatda müvəffəqiyyətlər arzulayıb.

Rayon icra hakimiyyətinin nümayəndəsi, "Qəbələ" qəzetinin redaktoru Varis Yaqubov tədbir iştirakçılarını bu əlamətdar gün münasibətilə təbrik edərək, dövlət başçısı tərəfindən təhsil sahəsində aparılan siyasətdən danışıb, bu sahədə həyata keçirilən islahatın Azərbaycanın xoşbəxt gələcəyinə hesablandığını diqqətə çatdırıb.

Məktəbin müəllimləri Fəryaz Həmidov, Xanım Hacıyeva və digərləri çıxış edərək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ölkədə təhsilin səviyyəsinin artırılması, təhsil müəssisələrinin əsaslı təmiri, yenilərinin tikintisi, onların bütün ləvazimatlarla təminatı və təhsil işçilərinə olan diqqətin artırılması istiqamətində görülən işlər barədə danışıblar.



Çıxış edənlər müstəqil həyatın astanasında duran məzunlara uğurlar diləyərək, onların ölkəmiz və xalqımız üçün layiqli övlad kimi yetişməklərini arzulayıblar.

Sonda məktəbin XI sinif şagirdləri öz ürək sözlərini söyləyiblər.

Tədbir məktəblilərin musiqili-bədii çıxışları ilə davam edib.

✍ **Nizami SƏFƏRƏLİYEV,**
**məktəbin müəllimi.**

## Vəndam

Hər il olduğu kimi bu il də məktəbimizdə ənənəvi olaraq «Son zəng» tədbiri keçirildi. Tədbirdə rayon təhsil şöbəsinin nümayəndələri, məktəbin müəllimləri, valideynlər və digər qonaqlar, iştrak etdilər. Eyni zamanda tədbirə qəsəbə ictimaiyyətinin və təhsil ocağının ötənilki məzunlarının bir qrupu da dəvət olunmuşdu.

«Son zəng» ərəfəsində duyğulu anlar yaşayan müəllimlər, məzunlar və onların valideynləri bu həyəcan qarışıq sevincli dəqiqələrdə zəngin ovqata köklənmişdilər. Unudulmaz günə toplaşanlar çıxışlarında birincilərə və onbirincilərə könül dolusu uğurlar arzuladılar. Məzunlar bu unudulmaz günü həm sevinc, həm də kövrək bir qüssə ilə qarşılayırdı. Çünki, onlar artıq bu gündən 11 il təhsil aldıqları məktəblə vidalaşır, müstəqil həyata qədəm qoyurlar.

✍ **Ruslan İSMAYILOV,**
**qəsəbə 1 nömrəli tam orta məktəbin direktor müavini.**

## Nic

Nic qəsəbə 4 nömrəli tam orta məktəbində «son zəng» və 15 İyun Milli Qurtuluş Günü münasibətilə tədbir keçirimişdir. Tədbiri giriş sözü ilə məktəbin direktoru Venera Baxışova açmışdır. Direktor məktəbin 2016-2017-ci dərs ilindəki fəaliyyətindən danışmış və məzunlara uğurlar arzulamışdır. Məktəbin müəllimlərindən Yaqub Süleymanov, Əvəz Əhmədov çıxış etmişlər. Sonra şagirdlər Qurtuluş Gününə və «son zəng»ə aid şeirlər oxumuşlar. Tədbirin sonunda birinciilər «son zəng»i səsləndirmişlər.

**«Qəbələ»**